AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN • DÖVLƏT • İQTİSAD • UNİVERSİTETİ
1930

**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**

**Fakültə: Maliyyə və mühasibat**

***Təsdiq edirəm:*** ____________________
***"Maliyyə və audit" kafedrasının müdiri:***
***i.e.d., prof. Ələkbərov Əvəz Əkbər***
***11 sentyabr 2025-ci il***

**"VERGİTUTMA" fənni üzrə**
**İŞÇİ TƏDRIS PROQRAMI**
**(Sillabus)**

## I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00917** |
| **Fənnin növü:** | *əsas* |
| **Tədris ili:** | *2025/2026* |
| **Tədris semestri:** | *Payız* |
| **Tədris forması:** | *əyani* |
| **Fakültə:** | "Maliyyə və mühasibat" |
| **Qrup:** | **650,652,654,656,658,660, 662, 664, 666,668<br>626,628,630,632,634, 636,638,640,642,644** |
| **Tədris yükü:** | *60 saat (30/30)* |
| **Kredit sayı:** | 4 |
| **Kafedra:** | "Maliyyə və audit" |

## II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Dos.Z.Ş. Paşayev<br>dos.L.T.Mehdiyeva,<br>dos.G.M.Məmmədova,<br>dos.A.İ.Qarayev<br>müəl.S.X.Hüseynova** |
| **E-mail ünvanı:** | Zohrabpashayev82@gmail.com<br>leyla.mehdiyeva@unec.edu.az,<br>gulsum.mammadova75@gmail.com |

**İş telefonu:** *(012)492-59-13, (012)492-40-04*

## III. Fənnin təsviri

*Müasir dövrdə ali iqttisadi təhsilin tərkib hissəsi olan vergi təhsilinin əhəmiyyəti durmadan artır. Vergitutmanın əsaslarının öyrənilməsi müasir iqtisadi təhsilin ayrılmaz tərkib hissəsidir. Ölkənin iqtisadi qüdrətinin artması, vergilərin cəmiyyətin həyatında rolunun yüksəlməsi ali təhsil müəssisələrinin iqtisadyönümlü fakultələrinin hamısında vergi sisteminin əsaslarının tədrisini zəruri edir. Vergitutma fənni Azərbaycan Respublikasında vergi sistemini, vergitutmanın əsaslarını, vergilərin müəyyən edilməsi, ödənilməsi və yığılması qaydalarını, vergi ödəyicilərinin və dövlət vergi orqanlarının, habelə vergi münasibətlərinin digər iştirakçılarının vergitutma məsələləri ilə bağlı hüquq və vəzifələrini, vergi nəzrətinin forma və metodlarını, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyəti, dövlət vergi orqanlarının və onların vəzifəli şəxslərinin hərəkətlərindən şikayət edilməsi qaydalarını öyrənirlər.*

## IV. Fənnin məqsədi və vəzifələri

*Ümumiyyətlə, hazırda vergilərin cəmiyyətin həyatında rolunun yüksəlməsi vergitutmanın tədrisi sahəsində də işlərin canlanmasına səbəb olmuşdur. "Fənnin tədrisinin məqsədi vergitutmanın iqtisadi sistemdəki rolunun tələbələrə mənimsədilməsidir.*

*Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:*

- *Vergi qoyma mexanizminin əsaslarının öyrənilməsi;*
- *Ölkəmizdə vergitutma sahəsindəki həyata keçirilən iqtisadi islahatların piroritetləri, dünya təsərrüfat sisteminə inteqrasiyasının tələbələri aşılanması.*

## V. Öyrənmənin nəticələri:

*Bu fənnin tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:*

**Bilməlidirlər:**

- ✓ Azərbaycan Respublikasında vergitutmanın təşkilati-hüquqi əsaslarını;
- ✓ Vergitutmanın strukturu və onun tətbiqi xüsusiyyətlərinin təşkilini;
- ✓ vergi ödəyicilərinin və vergi orqanlarının hüquq və vəzifələrini;
- ✓ Ayrı ayrı vergi növlərinin tətbiqi xüsusiyyətlərini

**Bacarmalıdırlar**:

- Vergi sistemlərinin müqayisəli təhlilini;
- Vergitutma sahəsində islahatların səmərəliliyinin qiymətləndirilməsini;
- Tətbiq olunanan vergi növlərinin vergi qaunvericiliyinə uyğunluğunun təhlilini.

## VI. Fənnin mühazirə mövzuları

1. Vergilərin iqtisadi mahiyyəti

2. Vergi siyasəti
3. Vergi sistemi
4. Vergilərin hesablanması və ödənilməsinin ümumi əsasları
5. Vergi münasibəti iştirakçılarının hüquq və vəzifələri
6. Vergi ödəyicilərinin uçotu
7. Vergi yoxlamaları və maliyyə institutlarında monitorinqi
8. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət
9. Fiziki şəxslərin gəlir vergisi
10. Hüquqi şəxslərin mənfəət vergisi
11. Əlavə dəyər vergisi
12. Aksizlər
13. Sadələşdirilmiş vergi
14. Əmlak və torpaq vergiləri
15. Yol və mədən vergiləri

## VII. Prerekvizitlər

*Fənnin tədrisi üçün öncədən tədrisi zəruri olan fənn yoxdur.*

## VIII. Fənnin tədris metodologiyası

*Vergitutma fənninin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, vergitutmaya aid məsələlərin həll edilməsi, kiçik qruplarda iş, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.*

## IX. Fənnin mühazirə mətnləri

*Fənn üzrə bütün mühazirə mətnləri və təqdimatlar, habelə zəruri məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (www.vu.aseu.az ) yerləşdirilir.*

## X. Tələb olunan dərsliklər və dərs vəsaitləri

1. *"Azərbaycan Respublikasının Konstitusiyası*
2. *Azərbaycan Respublikasının Vergi Məcəlləsi.*
3. *Azərbaycan Respublikasının Mülki Məcəlləsi.*
4. *Azərbaycan Respublikasının Cinayət Məcəlləsi.*
5. *Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi*
6. *Azərbaycan Respublikasının Gömrük Məcəlləsi*
7. *Azərbaycan Respublikasının"Büdcə sistemi haqqında" Qanunu*
8. *AzərbaycanRespublikasının"Dövlət rüsumu haqqında" Qanunu*
9. *Azərbaycan Respublikasının "Mühasibat uçotu haqqında" Qanunu.*

10. *Azərbaycan Respublikasının "İcra haqqında" Qanunu*
11. *Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli 800 saylı Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası 12. Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzi " Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 I,II,III fəsil*
13. *Qarayev İmran Əliyar oğlu i.e.f.d., Beynəlxalq təcrübədə vergi xərcləri və vergi güzəştlərinin tətbiqi xüsusiyyətləri Vergi Jurnalı, 2017 №3*
14. *Məmmədov F.Ə., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H.*

*Vergilər və vergitutma. Dərslik. Bakı, 2010 I,II,III,IV, V,VII, VII, IX fəsil*

15. *Musayev A.F., Qəhrəmanov A.Q. Vergi mədəniyyəri. İkinci nəşr.Bakı, 2010 16. Musayev A.F., Məmmədov Ə.C. "Ünvanlı vergi xidməti" Vergi ödəyicilərinin məlumat kitabı. Bakı, 2017, 288 s.*
17. *Məmmədov Ə.C. (elmi redaktorluğu ilə) Ünvanlı vergi xidməti.Təlimçilər üçün vəsait. Bakı, 2019*
18. *Kəlbiyev Y. A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi.*

*Dərslik. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı. 2011, 554 səh.*

19. *Kəlbiyev Y. A. Vergi siyasətinin konseptual əsasları və praktiki aspektləri. Bakı: "Elm", 2012. – 488 səh.*
20. *Rzayev P.Q. İqtisadiyyatın vergi tənzimlənməsi mexanizminin stimullaşdırıcı rolunun artırılması istiqamətləri. Bakı: "İqtisad Universiteti" 2019, 392 s.*
21. *http://www.taxes.gov.az*
22. *https://vergiler.az/*

## XI. Fənnin mühazirə mövzuları

*Burada fənn üzrə tələbələrə oxunacaq mühazirə mövzularının adları təqdim olunur:*

1. Vergilərin iqtisadi mahiyyəti
2. Vergi siyasəti
3. Vergi sistemi
4. Vergilərin hesablanması və ödənilməsinin ümumi əsasları
5. Vergi münasibəti iştirakçılarının hüquq və vəzifələri
6. Vergi ödəyicilərinin uçotu
7. Vergi yoxlamaları və maliyyə institutlarında monitorinqi
8. Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət
9. Fiziki şəxslərin gəlir vergisi
10. Hüquqi şəxslərin mənfəət vergisi
11. Əlavə dəyər vergisi
12. Aksizlər
13. Sadələşdirilmiş vergi
14. Əmlak və torpaq vergiləri
15. Yol və mədən vergilər

## XII. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| *1* | Vergilərin iqtisadi mahiyyəti | Vergilərin iqtisadi mahiyyəti.Vergilərin səciyyəvi xüsusiyyətləri.Verginin funksiyaları .Vergilərin təsnifləşdirici əlamətləri.Vergilərin təsnifləşdirilməsi | " Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 10-18 |
| *2* | Vergi siyasəti | Vergi siyasətinin mahiyyəti.Vergi siyasətinin məqsəd və vəzifələri.Vergitutmanın prinsipləri.Vergi siyasətinin növləri. Vergilərin müəyyən edilməsi və tutulmasının əsasları | Məmmədov F.A., Musayev A.F., Sadıqov M.M., Kəlbiyev Y.A., Rzayev Z.H. «Vergilər və vergitutma» Dərslik, Bakı, 2010 səh 20- 25 |
| *3* | Vergi sistemi | Vergi sisteminin iqtisadi mahiyyəti. AzərbaycanRespublikasının vergi qanunvericiliyi. Vergi sisteminin təşkili prinsipləri. Vergi sisteminin strukturu.Vergitutmanın elementləri | "Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 18-30 |
| *4* | Vergilərin hesablanması və ödənilməsinin ümumi əsasları | Vergilər üzrə borcların alınması qaydası, qeyriqanuni gəlir, vergitutma obyektinin ayrı-ayrı hallarda müəyyən edilməsi qaydaları..Sənaye, yaxud texnologiyalar parklarında vergitutma. Müddətlərin müəyyən edilməsi qaydası, xarici valyutanın manatla hesablanması, vergi ödəyiciləri ilə yazışma, vergi ödəyiciləri tərəfindən uçot sənədlərinin tərtib edilməsi və saxlanması, vergi hesabatının tərtib edilməsi və verilməsi qaydası. Ödəmələr haqqında məlumatın verilməsi, hesabatın verilməsi müddətinin uzadılması, vergi ödəyiciləri ilə münasibətdə bankların və bank əməliyyatlarının ayrı-ayrı növlərini həyata keçirən digər kredit təşkilatlarının vəzifələri və onlar tərəfindən məlumatların verilməsi | Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Kəlbiyev Y.A., Məhərrəmov R.B., Rzayev P.Q. Xarici ölkələrin vergi sistemi. Bakı, 2011 Fəsil VI , VII |
| *5* | Vergi münasibəti iştirakçılarının hüquq və vəzifələri | Vergi ödəyicisinin hüquqları və vəzifələri.Vergi agenti. Qarşılıqlı surətdə asılı olan şəxslər.Daimi nümayəndəlik.Dövlət vergi orqanları, onların təyinatı və fəaliyyətinin hüquqi əsasları.Vergi orqanları işçilərinin sosial müdafiəsi.Vergi orqanlarının hüquqları və vəzifələri.Dövlət gömrük orqanlarının vergitutma sahəsində hüquq və vəzifələri. Vergi orqanlarının digər dövlət hakimiyyəti orqanları ilə qarşılıqlı münasibətləri | |
| *6* | Vergi ödəyicilərinin uçotu | Vergi ödəyicilərinin uçotunun aparılmasının ümumi əsasları. Uçota alınma, yenidən uçota alınma və uçotdan çıxarılma qaydaları.Bankların vergi ödəyicilərinin uçotu ilə bağlı vəzifələri | Azərbaycan Respublikasının Vergi Məcəlləsi |

| | | | |
|---|---|---|---|
| *7* | Vergi yoxlamaları və maliyyə institutlarında monitorinqi | Vergi yoxlamalarının mahiyyəti. Kameral vergi yoxlaması. Səyyar vergi yoxlaması. Səyyar vergi yoxlaması nəticələrinin rəsmiləşdirilməsi .Operativ vergi nəzarəti .Xronometraj metodu ilə müşahidə aparılması | Azərbaycan Respublikasının Vergi Məcəlləsi |
| ***8*** | Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyət | Vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətin ümumi əsasları. Vergi qanunvericiliyinin pozulmasına görə şəxsi məsuliyyətə cəlb olunmanı və təqsirini istisna edən hallar.Vergi qanunvericiliyinin pozulmasın görə tətbiq edilən maliyyə sanksiyalar.Vergi orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyəti | Azərbaycan Respublikasının Vergi Məcəlləsi |
| ***9*** | Fiziki şəxslərin gəlir vergisi | Gəlir vergisinin ödəyiciləri və vergitutma obyekti. Gəlir vergisinin vergitutma bazası. Fiziki şəxslərin vergitutulan gəlirləri və onların təsnifatı. Gəlir vergisinin dərəcələri.Gəlir vergisi üzrə vergi güzəşti və azadolmalar. Hesabat dövrü və cari vergi ödəmələri | Azərbaycan Respublikasının Vergi Məcəlləsi " Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 173-180 |
| ***10*** | Hüquqi şəxslərin mənfəət vergisi | 1. Vergi ödəyiciləri və vergitutma obyekti<br>2. Vergituma bazası<br>Vergi dərəcələri. Vergi güzəşti azadolmalar.Gəlirin və xərcin uçotu. Hesabat dövrü və cari vergi ödəmələri.Gəlir əldə edilməsi ilə bağlı xərclər. Gəlird çıxılmayan xərclər. Xarici ölkədə ödənil verginin nəzərə alınması. Gəlirin və xərcin uço qaydası Əmtəə-material ehtiyatlarının uçotu Beynəlxalq təşkilatlarla əməkdaşlıq<br>Azərbaycan Respublikası ilə digər dövlətlər arasında ikiqat vergitutmanın aradan qaldırılmasına dair beynəlxalq Sazişlər .Beynəlxalq daşımaların vergiyə cəlb edilməsi | "Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 180-195 |
| ***11*** | Əlavə dəyər vergisi | Əlavə dəyər vergisinin ödəyiciləri. Vergitutma obyekti. Əlavə dəyər vergisinin vergitutma bazası.Vergi tutulan əməliyyatın dəyəri. Vergi tutulan dövriyyənin dəqiqləşdirilməsi. Vergi güzəşti və azad etmələr. Qeyri-rezidentlərin vergiyə cəlb edilməsi. ƏDV-nin dərəcəsi.Vergi tutulan dövriyyədən büdcəyə ödənilməli olan ƏDV.Əvəzləşdirilən vergi məbləği hesablanmış vergi məbləğindən artıq olduqda, büdcə ilə münasibətlər.Bəyannamələrin verilməsi və ƏDV-nin ödənilməsi | Azərbaycan Respublikasının Vergi Məcəlləsi<br>" Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 195-212 |
| ***12*** | Aksizlər | Aksiz vergisinin iqtisadi mahiyyəti. Aksiz vergisinin ödəyiciləri və vergi tutma bazası, vergi dərəcələri. Aksizin əvəzləşdırılməsi. Hesabat dövrü. | Azərbaycan Respublikasının Vergi Məcəlləsi.<br>"Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 212-217 |
| ***13*** | Sadələşdirilmiş vergi | Sadələşdirilmiş verginin iqtisadi mahiyyəti. Sadələşdirilmiş verginin ödəyiciləri və vergi tutma bazası, vergi dərəcələri. | Azərbaycan Respublikasının Vergi Məcəlləsi<br>"Vergiyə giriş" Dərs vəsaiti. Şamaxı-2014 səh 231-237 |

| | | | |
|---|---|---|---|
| *14* | Əmlak və torpaq vergiləri | Əmlak və torpaq vergisinin iqtisadi mahiyyəti. Əmlak və torpaq vergisinin ödəyiciləri və vergi tutma bazası vergi dərəcələri., güzəştlər. | Azərbaycan Respublikasının Vergi Məcəlləsi “ Vergiyə giriş” Dərs vəsaiti. Şamaxı-2014 səh 217-224 |
| *15* | Yol və mədən vergiləri | Yol vergisinin iqtisadi mahiyyəti. Yol vergisinin ödəyiciləri və vergi tutma bazası, vergi dərəcələri. Hesabat dövrü. Mədən vergisinin iqtisadi mahiyyəti. Mədən vergisinin ödəyiciləri və vergi tutma bazası, vergi dərəcələri. | Azərbaycan Respublikasının Vergi Məcəlləsi Vergiyə giriş” Dərs vəsaiti. Şamaxı-2014 səh 224-231 |
| | **Yekun imtahan** | | |

## Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə cıxarilan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir və həmin ballar EDUMAN sistemində aşağıdakı nisbətlərdə nəzərə alınır:

- 10 bal:5 bal
- 9 bal: 4,5 bal
- 8 bal : 4baI
- 7 bal: 3,5bal
- 6 bal: 3 bal
- 5 bal: 2,5 bal
- 4bal: 2bal
- 3 bal:1,5 bal
- 2bal: I bal
- I bal:0,5 bal

Seminar balları əsasında formalaşan yekun aktivlik balı aşağıdakı düsturla müəyyən edilir. B = (((bI +b2+b3+.".+bn)/s)*m)/l0

Burada, B - yekun aktivlik bah; b - seminar dərslərində alınan müxtəlif ballar s - semestr ərzində verilən cavabların sayı m - aktivlik bahna aynlan maksimal bal; l0 - bir seminar dərsində toplanan maksimal baldır.

Tələbə semestr ərzində cəmi 4 dəfə, hər dəfə isə 10 bal aldığı halda maksimal aktivlik balını - 20 bah toplamış olur. Bu halda nəticə sistemdə ((( 1 0+ 1 0+ 1 0+ 1 0)l 4)* 20)l 70 : 20 olaraq hesaba alınır. Maksimal bal toplaya bilməyənlər isə istədiyi halda 5-ci, 6-ct,7-ci ve s. Cavab verməklə aktivlik balı toplaya bilərlər. Bu

zaman müəllim ilkin olaraq həmin qrupda 4 dəfə cavab verməyənlərdən başlamaqla növbəlilik prinsipi əsasında tələbəyə cavab verməsi imkanı yaradır.

**XIII. Fənn üzrə kurs işi**

Fənn üzrə kurs işi nəzərdə tutulmayıb.

**XIV Fənn üzrə ara və aralıq qiymətləndirmə**

Ara qiymətləndirmə hər bir fənn üzrə semestr ərzində maksimal 30 bal formalaşdıran və ilk 7 tədris həftəsi ərzində keçilmiş mövzular üzrə (7-ci həftə də daxil olmaqla) aparılan qiymətləndirmədir. Ara qiymətləndirmə mərkəzləşdirilmiş qaydada yazılı üsulda 8-ci və 9-cu tədris həftələri ərzində keçirilir

Yazılı üsulunda keçirilən ara qiymətləndirmə zamanı tələbəyə 3 sual, aralıq qiymətləndirmə zamanı isə təhsilalanlara 5 sual təqdim olunur. Fənn üzrə tələbəyə qiymətləndirmədə veriləcək sualların siyahısı.

Fənn üzrə tələbələrin yekun biliyi 100 ballıq sistem üzrə qiymətləndirilir. Balların maksimum miqdarı – 100 baldır.

Yekun imtahandan sonra tələbənin fənn üzrə topladığı bütün ballar toplanır və yekun qiymət (bal) hesablanır. Fənn üzrə tələbənin əldə edə biləcəyi yekun balın strukturu aşağıdakı cədvəldə təqdim edilib:

| **İstiqamət** | **Ballar** | **Faiz** |
|---|---|---|
| Aralıq qiymətləndirmə | 50 | 50% |
| Ara qiymətləndirmə | 30 | 30% |
| Auditoriya qiymətləndirməsi | 20 | 20% |
| **Cəmi:** | 100 | 100% |

Fənn üzrə semestr ərzində (imtahana qədər və imtahanda) tələbənin topladığı balın yekun miqdarına görə onun yekun biliyi aşağıdakı kimi qiymətləndirilir:

| | | |
|---|---|---|
| 51 baldan aşağı olduqda | "qeyri-kafi" | F |
| 51-60 bal | "qənaətbəxş" | E |
| 61-70 bal | "kafi" | D |
| 71-80 bal | "yaxşı" | C |
| 81-90 bal | "çox yaxşı" | B |
| 91-100 bal | "əla" | A |

Tələbənin topladığı yekun bal 51 baldan aşağı olduqda (yəni onun biliyi "qeyri-kafi" qiymətləndirildikdə) tələbə bu fəndən krediti qazanmır və onun fənn üzrə akademik borcu qalır.